**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması huququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA LİZİNQ ƏMƏLİYYATLARININ TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri


İddiaçı: **Günel Mustafa qızı Səfərova**


fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Odlar Yurdu universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Mübariz Məmmədhüseyn oğlu Bağırov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru
**Hənifə Alhüseyn oğlu Cəfərli**

iqtisad elmləri üzrə fəlsəfə doktoru,
dosent **Vahid Vaqif oğlu Gərayev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru,
dosent **Rahim Fərahim oğlu Sadıqov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən Aərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin ED 2.46 Birgə Dissertasiya şurası

Birgə Dissertasiya şurasının
sədri: AMEA-nın həqiqi üzvü,
iqtisad elmləri doktoru, professor
__________________ **Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının
elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə
doktoru, dosent
__________________ **Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri:
iqtisad elmləri doktoru, professor,
Əməkdar kənd təsərrüfatı işçisi
__________________ **İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Bazar iqtisadiyyatının müasir inkişaf mərhələsində hər bir ölkə iqtisadi inkişaf dinamikasına nail olmaq üçün müxtəlif vasitə və üsullardan istifadə edir. Bunlardan biri də maliyyə sahəsinin və onun ayrı-ayrı seqmentlərinin daimi olaraq inkişaf etdirilməsi və təkmilləşdirilməsidir. Belə seqmentlərdən biri də lizinq xidmətidir. Lizinq özü-özlüyündə münasibətlərin inkişafı, onun genişləndirilməsi, iqtisadiyyatda müsbət meyillər yaradan amillərdən biridir. Ötən əsrin ikinci yarısından başlayaraq lizinq əməliyyatlarının ölkələrin iqtisadiyyatında geniş vüsət alması, onun maliyyə dərinliyinin getdikcə artması, əhatə dairəsinin genişlənməsi biznesin bu növünün nə qədər əhəmiyyətli və səmərəli olmasının göstəricisidir.

Azərbaycan iqtisadiyyatında lizinq xidmət növlərinin genişlənməsinə və lizinq bazarının formalaşmasına baxmayaraq, son illərdə bu xidmətdən istifadə səviyyəsi aşağı düşmüşdür. Bunun da bir sıra obyektiv və subyektiv səbəbləri vardır. Belə ki, bu sahədə xarici iqtisadi əlaqələrin zəifləməsi, uzunmüddətli pandemiya şəraitinin olması, Rusiya-Ukrayna müharibəsi, ölkədə qanunvericilik bazasının müəyyən qədər təkmil olmaması və ən əsası lizinq faizinin bank faizindən yüksək olması ilə bağlıdır. Belə ki, Azərbaycanda lizinq bazarı müəyyən bir səviyyədə formalaşmış, bazarda müəyyən sayda iştirakçılar meydana gəlmiş, dövlətin strateji sahə saydığı aqrar sahədə dövlət lizinq şirkəti yaradılmış, dövlətin bu sahəyə qayğı və dəstəyi və s. nümayiş etdirilmişdir. Lakin, bu qeyd edilənlər dünyada mütərəqqi maliyyələşmə, biznes, maliyyə vasitəçiliyi elementi sayılan lizinqin bizim respublikamızda hələ lazımi səviyyədə inkişafını təmin edə bilməmişdir. Bu baxımdan da, lizinq bazarının genişlənməsi, onun iqtisadiyyatın bütün sahələrində tətbiq edilməsi və onun maliyyə dərinliyinin daha da artırılması tələb olunur. Hər bir konkret lizinq əməliyyatlarının daha da təkmilləşdirilməsi, bu sahədə dünya təcrübəsinə uyğun olaraq güzəşt və imtiyazların tətbiq edilməsinin genişləndirlməsi, bu əməliyyat növünün əhali və sahibkarlar arasında təşviqinin gücləndirilməsi tələbatdan geri qalır. Həmçinin bu sahədə peşəkar mütəxəssislərin hazırlanması və s. günün aktual

məsələlərindən biri kimi qarşıda durur.

Ölkəmizdə lizinq bazarının inkişaf etdirilməsi üçün şərait və zəmin mövcuddur. Mümkün variantlardan istifadə edərək bu bazarın zəruri səviyyədə inkişaf etdirilməsinin üsul və qaydalarının müəyyən edilməsi, bütövlükdə makro və mikro səviyyədə təşkili və təkmilləşdirilməsi ən vacib problem kimi dövlətin, tədqiqatçıların, eyni zamanda bazar iştirakçılarının fəaliyyət istiqamətinə çevrilməlidir. Lizinq əməliyyatı özündə müxtəlif aspektli innovativ maliyyə fəaliyyətini, yeni texnika və texnologiyanın tətbiqi üsullarını, investisiya qoyuluşlarının sürətlənməsini, perspektiv biznes təşkilatçılığını və s. əks etdirir. Bu vasitələrdən fəal surətdə istifadə edərək və əməliyyatları getdikcə təkmilləşdirərək iqtisadiyyatda səmərəli nəticələr əldə etmək olar. Məhz bu baxımdan, tədqiqat obyekti kimi seçilmiş lizinq əməliyyatlarının genişlənməsində və təkmilləşdirilməsində mühüm rol oynayan lizinq bazarının fəaliyyətinin əsas perspektivləri və istiqamətləri ölkədə son zamanlar qəbul edilmiş normativ sənədlərdə öz əksini tapmışdır. Lizinq xidməti haqqında 29 noyabr 1994-cü ildə Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, lakin lizinq xidmətinin inkişafı üçün bu qanun tam olmadığından 2003-cü ildə Lizinq xidməti haqqında Azərbaycan Respublikasının Qanunu qüvvədən düşmüşdür.

Bundan başqa Azərbaycan Respulikası Prezidentinin 20 dekabr 2018-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Fərman verilmişdir. Bu fərmanda "*Kənd təsərrüfatı istehsal vasitələri bazarında rəqabətyönlü fəaliyyətin təmin edilməsi, texnikanın və damazlıq heyvanların lizinq vasitəsilə güzəştli satışı mexanizminin təkmilləşdirilməsi, özəl aqrotexniki xidmətlərin genişləndirilməsi, dövlət-özəl tərəfdaşlığı prinsipi tətbiq edilməklə güzəştlərə yönəldilən büdcə vəsaitindən səmərəli istifadə*" öz əksini tapmışdır. Qeyd edək ki, son illərdə qlobal iqtisadiyyatda yaşanan problemlər, resursların qiymət artımı ölkə iqtisadiyyatına təsir etməkdədir. Milli iqtisadiyyatın müxtəlif sahələrində iqtisadi artımı təmin etmək üçün innovativ texnologiyalardan, eləcə də müxtəlif müasir maşın-mexanizmlərdən, istehsal avadanlıqlarından daha səmərəli istifadəyə zərurət yaranmışdır. Bütün bunların əldə edilməsi

üçün investisiyalara ehtiyac yaranmaqla bərabər sahibkarların əlçatanlığı da təmin edilməlidir. Bu sahədə olan problemlərin aradan qaldırılması üçün ən səmərəli vasitədən biri də ölkədə fəaliyyət göstərən lizinq xidmətinin daha da genişlənməsi və lizinq əməliyyatlarının təkmilləşdirilməsi yoludur. Məhz bu baxımdan, "Azərbaycan Respublikasında lizinq əməliyyatlarının təkmilləşdirilməsi" mövzusunda elmi tədqiqat işi öz aktuallığı ilə seçilir.

Ümumilikdə, lizinq xidmətlərinin çoxsaylı aspektləri, onun inkişaf istiqamətləri, nəzəri-metodoloji və praktiki məsələləri daimi olaraq tədqiqatçı alimlərin, iqtisadçıların, praktiki sahədə çalışanların diqqət mərkəzində olmuşdur. Lizinqə aid problemlərə həsr olunmuş məsələlərə həm klassik iqtisadçıların, müasir dövr mütəxəssislərinin, xarici ölkə alimlərinin, həmçinin də Azərbaycan iqtisadçı alimlərinin diqqət mərkəzində olmuşdur. Azərbaycan alimlərindən Z.Ə.Səmədzadə, E.A.Quliyev, A.B.Abbasov, B.X.Ataşov, R.M.Cəbiyev, İ.H.İbrahimov, M.M.Bağırov, Z.H.Zeynalov, Z.R.Əsədov, Ş.Ə.Axundov, M.O.Şirəliyev və başqaları tərəfindən lizinq xidmətinin inkişafı ilə əlaqədar bir sıra tədqiqat işləri aparılmışdır.

Lizinq bazarının formalaşmasına, onun inkişaf etdirilməsinə, fəaliyyət prinsiplərinə, iqtisadiyyatdakı roluna və əhəmiyyətinə dair xarici ölkə alimləri olan A.İ.Dobrıninin, O.İ.Lavruşinin, T.Q.Filosovanın, V.İ.Vidyapinin, K.R.Tahirbəyovun, V.V.Polyakovun, H.M.Vasilyevin, A.S.Kryaçun, J.Sebikin, T.Lemonun, L.M.Carterin, A.M. Tavaşyevin, B.Ç.Fomiçevin və başqalarının əsərlərində rast gəlmək olar.

Lizinq bazarının inkişafına, onun çoxsaylı problemlərinin həllinə dair məsələlərlə bağlı tədqiqatların aparılmasına baxmayaraq bu əsərlərdə ölkənin lizinq bazarının son illərdəki vəziyyəti, onun inkişaf problemləri və zəruri inkişaf istiqamətləri kompleks şəkildə araşdırılmamışdır. Eyni zamanda bazar iqtisadiyyatının davamlı inkişafı lizinq əməliyyatlarının təkmilləşdirilməsinə daima zərurət yarandığını göstərir. Bu baxımdan lizinq əməliyyatlarının təkmilləşdirilməsi və bu bazarın əhəmiyyətinin yüksəldilməsi istiqamətində tədqiqat işinin davamlı olaraq aparılmasına zərurət yaranmışdır.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat obyekti olaraq Azərbaycan Respublikasının lizinq xidmətləri bazarı və onun iştirakçıları olan lizinq şirkətləri seçilmişdir.

Tədqiqatın predmeti lizinq bazarının fəaliyyətinin təşkili, tənzimlənməsi, təkmilləşdirilməsi ilə bağlı ortaya çıxan nəzəri və praktiki məsələlərin araşdırılması üçün tətbiq edilən üsul və qaydaların, iqtisadi münasibətlərin məcmusundan ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi Azərbaycan Respublikasında lizinq bazarının formalaşmasının əsas xüsusiyyətlərinin, parametrlərinin araşdırılması, lizinq əməliyyatlarının müasir vəziyyətinin təhlil edilməsi və gələcəkdə lizinqin təşkili və idarə edilməsinin təkmilləşdirmə istiqamətlərinin müəyyən edilməsindən ibarətdir. Qeyd edilənlərin elmi cəhətdən əsaslandırılması, praktikada səmərəli tətbiqi üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi məqsəd kimi qarşıya qoyulmuşdur:

- lizinq münasibətlərinin yaranması zəruriliyini araşdırmaq, onun iqtisadi mahiyyətini açmaq, iqtisadiyyatdakı rolunu, əhəmiyyətini tədqiq etmək;
- lizinq xidmətinin formalaşmasının səciyyəvi xüsusiyyətlərini tədqiq etmək, lizinq potensialından istifadənin metodoloji məsələlərini müəyyən etmək;
- xarici ölkələrin timsalında lizinq xidmətinin təşkilinin dünya təcrübəsini araşdırmaq;
- ölkənin lizinq bazarının fəaliyyətinin mühüm göstəricilər əsasında müasir vəziyyətinin təhlil edilməsi;
- lizinq xidmətləri bazarının fəaliyyətinin qiymətləndirilməsi və iqtisadi nəticələrin yüksəldilməsi istiqamətində təkliflərin hazırlanması;
- lizinq münasibətlərinin dünya təcrübəsinin qabaqcıl elementlərinin Azərbaycanın lizinq bazarında tətbiq edilməsi imkanlarının müəyyənləşdirilməsi;
- respublikamızın lizinq bazarının təşkili və fəaliyyətinin idarə olunmasının, tənzimlənməsinin normativ-hüquqi bazasının araşdırılması və lizinq əməliyyatlarının təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat aparılarkən müqayisəli təhlil, statistik təhlil, pozitiv-praqmatik, sistemli yanaşma, balans və digər üsullardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Tədqiqat işi ilə əlaqədar müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardan ibarətdir:

- ✓ lizinqin yaranmasına tarixi baxışların və onun növlərinin səciyyəsi, eləcə də lizinq xidmətləri bazarının formalaşmasının iqtisadi inkişafda rolunun müəyyən edilməsi zəruri hesab edilmişdir;
- ✓ ölkədə lizinqin resurs potensialının formalaşması xüsusiyyətlərinin araşdırılması və lizinq potensialından səmərəli istifadə metodoloji məsələlərinin müqayisəli müəyyən edilməsinə ehtiyac vardır;
- ✓ lizinq əməlyyatlarının aparılmasının milli və beynəlxalq təcrübəsinin müqayisəli təhlilnin aparılması zərurəti yaranmışdır;
- ✓ milli lizinq xidmətləri əməliyyatlarının təhlili əsasında onun inkişafına mane olan əsas problemlərin müəyyən edilməsinə ehtiyac yaranmışdır;
- ✓ lizinq əməliyyatlarının təşkili və idarə edilməsi üzrə mövcud qanunvericilik aktlarının səciyyələndirilməsi əsasında mövcud boşluqları və ona təsir edən amillərin müəyyən edilməsi məqsədəuyğun hesab edilmişdir;
- ✓ lizinq əməliyyatlarının genişləndirilməsində kredit, vergi, qiymət və s. tənzimlənmə mexanizmlərindən istifadə səviyyəsinin müəyyən edilməsi tələb olunur;
- ✓ ölkədə lizinq əməliyyatlarının təkmilləşdirilməsində beynəlxalq təcrübədən faydalanmağın münasib variantları və imkanlarının elmi əsaslandırılmasına ehtiyac yaranmışdır.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat nəticəsində əldə edilən elmi yenilikləri aşağıdakı ardıcıllıqla təqdim etmək olar:

- müasir elmi yanaşmalara və tədqiqatlara əsalanaraq, lizinqin resurs potensialının formalaşması və ondan istifadənin metodoloji aspektləri müəyyən edilmişdir;
- xarici ölkələrin timsalında lizinq əməliyyatlarının aparılmasının dünya təcrübəsi araşdırılmış və milli lizinq xidməti bazarında ondan səmərəli istifadə imkanları və metodları müəyyən

edilərək əsaslandırılmışdır;

- milli lizinq xidmətləri bazarında sövdələşmələrin aparılmasının hüquqi bazası tədqiq edilərək, lizinq əməliyyatlarının təkmilləşdirilməsinə yeni yanaşmalar müəyyən edilmişdir;
- ölkənin lizinq xidmətləri bazarının inkişafında mövcud problemlər araşdırılaraq, onun maliyyə-kredit, təşkilati və qiymət (tarif) tənzimlənməsi mexanizmləri müəyyən edilmişdir;
- son illərin statistik məlumatları əsasında aparıcı lizinq şirkətlərinin nümunəsində lizinq əməliyyatlarının təşkili və idarə edilməsində mövcud olan maneələr müəyyən edilmiş və müvafiq elmi-təcrübi əhəmiyyətli təkliflər işlənilmişdir;
- ölkədə qəbul edilən inkişaf proqramalarına, konsepsiyalara və Strateji Yol Xəritələrinə uyğun olaraq, lizinq xidmətləri bazarının inkişaf hədəflərinə nail olunmasının səmərəli mexanizmləri işlənilmişdir;
- aparılan təhlil və qiymətləndirmənin nəticələrinə uyğun olaraq lizinq əməliyyatlarının əsas parametrləri və onların hesablanması üsulları dəqiqləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Lizinq münasibətlərinin tədqiq olunması nəticəsində əldə olunmuş konseptual müddəalar, irəli sürülən konkret təkliflər, respublikamızda lizinq bazarının inkişaf etdirilməsi, lizinq əməliyyatlarının təkmilləşdirilməsi, lizinq biznesinin səmərəli inkişafı üçün zəruri proqramların qəbul olunmasında, funksional, məqsədli proqram və proqnozların tərtib olunmasında, aid olduğu sahəyə dair dövlətin iqtisadi siyasətində istifadə edilə bilər. Bunlarla yanaşı tədqiqatın materialları bütövlükdə tədris prosesində bakalavr pilləsində "Biznesin əsasları", "Bank işi", magistratura pilləsində "Biznesin nəzəri və təcrübi məsələləri", "Sahibkarlıq fəaliyyətinin təşkili", "Maliyyə bazarının nəzəri və praktiki məsələləri" fənlərinin tədrisində geniş istifadə edilə bilər. Tədqiqatın materialları həmçinin lizinq şirkətlərinin fəaliyyətində, onların işinin təkmilləşdirilməsində də istiqamət kimi istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat nəticəsində dissertasiya işi üzrə ümumilikdə 17 adda (onlardan 11 elmi məqalə (4-ü xaricdə olmaqla), 6 tezis olaraq (1-i xaricdə olmaqla)) elmi əsərlər çap olunmuşdur.

Konfrans materialları sırasında “Формирование и развитие рынка лизинга в Азербайджане” (Минск, 2012), “Lizinqin xarakterik xüsusiyyətləri və aqrar sektorda onun tətbiqi mexanizmi” (Sumqayıt, 2018), “Heydər Əliyevin hakimiyyət illərində Azərbaycan iqtisadiyyatında lizinq prosesi” (Bakı, 2023) adlı tezisləri göstərmək olar. Tədqiqat zamanı müəllifin həmçinin “Lizinq - icarə münasibətlərinin müasir bazar formasıdır” (Bakı, 2009) “Проблемы и перспективы развития лизинга в Азербайджане” (Москва, 2012), “Aqrar sektorda lizinq əməliyyatlarının inkişaf istiqamətləri” (Bakı, 2018), “Lizinqin resurs potensialının formalaşması və istifadə qaydaları” (Naxçıvan, 2018) “Lizinq münasibətlərinin tənzimlənməsi təcrübəsi: qarşılıqlı müqayisə və reallıqlar” (Bakı, 2023) adlı məqalələri dərc olunmuşdur.

**Dssertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Odlar Yurdu Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**: Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işində 11 cədvəl, 1 şəkil, 1 qrafik, 1 diaqram və 7 sxem verilmişdir. Tədqiqatın ümumi həcmi – 251327 işarədir. Giriş – 14224 işarə, I fəsil – 59859 işarə, II fəsil – 61354 işarə, III fəsil – 77963 işarə, nəticə – 11765 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı – 14024 işarədən ibarətdir. Cədvəllər, şəkillər və ədəbiyyat siyahısı istisna olmaqla 225165 şərti işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, onun nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin ümumi həcmi şərh olunmuşdur.

Dissertasiya işinin **“Azərbaycanda lizinq əməliyyatları və onun həyata keçirilməsinin nəzəri-metodoloji əsasları” adlı I fəslində** lizinqin yaranması zəruruliyi və milli iqtisadiyyatın inkişafında rolu,

lizinqin resurs potensialının formalaşması və ondan istifadənin metodoloji məsələləri, lizinq əməliyyatlarının təşkili və aparılmasının dünya təcrübəsi araşdırılaraq ətraflı təhlil edilmişdir.

Bu fəsildə lizinq əməliyyatlarının nəzəri məsələləri, onun iqtisadi əhəmiyyəti araşdırılaraq təhlil olunur. Qeyd edilir ki, bazar iqtisadiyyatının müasir inkişaf mərhələsində lizinq çoxşaxəli parametrlərə malik olan və iqtisadiyyatın inkişafında mühüm rol oynayan bir element kimi tətbiq olunur. Müasir iqtisadi ədəbiyyatlarda qeyd olunduğu kimi, lizinq müxtəlif iqtisadi əməliyyatlara investisiya qoyuluşunun bir forması, kredit əməliyyatlarının spesifik forması, istehsal proseslərinin genişləndirilməsi və modernləşməsində tətbiq edilən xüsusi bir vasitə kimi, sahibkarlıq fəaliyyətinin bir növü, biznes fəaliyyətinin xüsusi növü və s. kimi istifadə edilir. Qeyd edilən çoxsaylı iqtisadi parametrlərə malik olduğuna, yüksək səviyyədə iqtisadi səmərə verdiyinə və əməliyyatın iştirakçılarının hər biri üçün zəruri vasitə olduğuna görə lizinq əməliyyatlarının ölçüləri, sərhədləri, əhatə dairəsi və s. daimi olaraq genişlənməkdədir.

Müəllif, lizinqin yaranma tarixini və zərurətini tədqiq edərkən ABŞ-ın təcrübəsinin daha təkmil olduğunu göstərir. Bir çox tədqiqatçılar bu ölkəni lizinqin yarandığı ilk coğrafi məkan sayırlar. Tarixi faktlar sübut edir ki, bu ölkədə uzun müddət, yəni XIX əsrin 60-70-ci illərinə kimi lizinqə yalnız daşınmaz əmlak verilirdi.

Aparılan araşdırmalar göstərir ki, milli və dünya iqtisadiyyatında lizinq xidmətləri şəbəkəsinin formalaşmasına təsir göstərən amillər əsasən aşağıdakılardan ibarətdir:

- tələb duyulan həcmdə likvid vəsaitlərin olmaması;
- investisiyalaşdırma sahəsində rəqabətin tədricən güclənməsi;
- firmaların mənfəətinin azalmasının məhsul istehsalının artırılması məqsədilə onların lazımi miqdarda vəsait qoyuluşu imkanlarını məhdudlaşdırması.

Lizinqin iqtisadiyyatda əhəmiyyətinin artması, onun çox səmərəli fəaliyyət üsulu olması və s. parametrləri lizinqi biznesin aparıcı növlərindən birinə çevirdi. Bu istiqamətdə əsas hadisələrdən biri fəaliyyəti yalnız lizinq əməliyyatlarının aparılmasından ibarət olan "Yunayted Steyts Lizinq Korporeyşn" (United States Leasinq Corporation - US Leasinq Corp) şirkətinin yaradılması oldu. Bu şirkət

ABŞ-ın San - Fransisko şəhərində 1952-ci ildə yaradılmış ilk lizinq şirkəti idi. Şirkət, bəşər tarixində bütün hüquqi əsasları təmin etməklə yaradılan şirkət kimi qeydə alınmışdır. Onun yaradıcısı olan Genri Şonfelt Amerikada lizinq şirkətlərinin, əməliyyatlarının banisi adlandırılır. Şirkət, getdikcə böyük nüfuz və imic qazanaraq öz fəaliyyətini xeyli genişləndirmişdir.

Lizinq bazarının formalaşması hər şeydən əvvəl onun normativ hüquqi bazasının yaradılması ilə başlayır. Yuxarıda qeyd edilən bazarların yaradılması hər bir ölkədə fərqli amillərin təsiri altında baş verir. Bu amillərə siyasi, iqtisadi, təşkilati, idarəetmə amilləri, həmçinin ölkə iqtisadiyyatının sturukturu, aparılan iqtisadi siyasətin məqsəd və prioritetləri, ümumi daxili məhsulun həcmi, məşğulluq səviyyəsi, inflyasiya səviyyəsi, sahibkarlığın inkişaf səviyyəsi, kapital, kredit, investisiya axınlarının səviyyəsi və s. kimi makroiqtisadi amillər aid edilir.

Apardığımız təhlillər göstərir ki, lizinq əməliyyatlarını aparmaq üçün, həm də lizinq münasibətlərində mövcud olan rəqabətdə qalib gəlmək üçün daxili və xarici mənbələrdən istifadə edilməlidir. Burada cəlb edilmiş maliyyə resursları və xüsusi vəsaitlərdən istifadə edilir. Lizinq əməliyyatlarında qarşıya qoyulan vəzifənin öhdəsindən gəlmək üçün lizinq şirkətləri müxtəlif mənbələrini - maliyyə resurslarını cəlb edirlər. Bununla əlaqədar lizinq şirkətinin resurs mənbələrini aşağıdakı kimi əks etdirmək olar. (sxem 1). Sxem 1-in məlumatlarından da görünür ki, lizinq şirkətinin resurs potensialının formalaşması digər iqtisadi subyektlərdə olduğu kimi məhz iki mənbə hesabına baş verir. Həm daxili mənbələr, həm də xarici mənbələr məcmu bazanı təşkil etsələr də onların hər biri ayrı-ayrı spesifik xüsusiyyətlərə malikdirlər. Belə ki, lizinq şirkətinin xüsusi vəsaitlərinin malik olduqları ən zəruri müdafiə, operativ və tənzimləmləmə funksiyaları mövcuddur ki, elə bu funksiyalar vasitəsilə hər bir iqtisadi subyekt fəaliyyəti zamanı təxirəsalınmaz vəzifə və öhdəliklərini yerinə yetirərək səmərəli nəticələr əldə edə bilirlər.




**Sxem 1. Lizinqin resurs mənbələri**

*Mənbə: Sxem lizinq şirkətlərinin praktiki materialları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

İqtisadçı alim M.M.Bağırovun da qeyd etdiyi kimi, "*Kifayət dərəcədə xüsusi kapitalın olması lizinq şirkətlərinin likvidliyini və etibarlığını təmin edən ən lazımlı parametr kimi çıxış edir*"[1].

---

[1] Bağırov, M.M. Banklar və bank əməliyyatları. Dərslik. / M.M.Bağırov – Bakı: Nurlan, 2003. – 512 s.

Dissertasiyada dünyanın bəzi ölkələrində lizinqin əsas kapitala yönəldilən məcmu investisiyaların payı, Avropa Lizinq Şirkətləri Assosiasiyaları Federasiyasına üzv olan ölkələrdə lizinq müqavilələrinin dəyəri və digər göstəricilər təhlil edilir. Qeyd edilir ki, dünya ölkələrində lizinq bazarının təhlili aparılarkən Azərbaycanın lizinq bazarı ilə inkişaf etmiş ölkələrin uyğun bazarı ilə müqayisəni aparmaq düzgün deyildir. Çünki, inkişaf səviyyələrində həddən artıq böyük fərq olan ölkələrin lizinq bazarlarının oxşar cəhətlərini tapmaq çətindir. Ona görə də Rusiya Federasiyasının və Türkiyənin təcrübəsi əsasında lizinq bazarının əsas göstəriciləri, lizinq vasitəsilə iqtisadiyyatda investisiya qoyuluşunun strukturu təhlil edilir. Lizinq bazarında lizinq alanlar içərisində iri, kiçik, orta biznesin və dövlət müəssisələrinin, həmçinin fiziki şəxslərin xüsusi çəkisi, maliyyələşmə mənbələrinin strukturundakı meyillər araşdırılır.

İqtisadçı alim professor B.X.Ataşov öz tədqiqatlarında göstərir ki, "*Maliyyə lizinqi lizinqin ən geniş yayılmış formasıdır ki, burada icarə müddəti icarəyə verilən əmlakın tam amortizasiya müddəti ilə üst-üstə düşür. Bu lizinq icarədarın mövcud olan texniki potensialın yenidən təchiz edilməsinə ehtiyacı olan zaman daha əlverişlidir*".[2] Araşdırma və təhlillərə uyğun olaraq lizinq şirkətlərinin maliyyə vəsaitlərini yaradan əsas mənbələrdən birinə lizinq götürənlərə verilən avansı göstərə bilərik. Bu formada maliyyə resurslarının formalaşmasının mənbəyini ənənəvi mənbə hesab etmək olar.

Dissertasiya işinin **"Azərbaycanda lizinq əməliyyatlarının həyata keçirilməsinin mövcud vəziyyətinin təhlili və nəticələrinin qiymətləndirilməsi**" adlı II fəslində Azərbaycanda lizinq bazarının formalaşması və onun fəaliyyətinin normativ hüquqi əsasları, Azərbaycanda lizinq əməliyyatlarının həyata keçirilməsinin mövcud vəziyyətinin təhlili və Azərbaycanda lizinq əməliyyatlarının iqtisadi səmərəliliyinin təhlili məsələləri tədqiq olunmuşdur.

---

[2] Ataşov, B.X, Maliyyə bazarları. Ali məktəb tələbələri üçün dərslik. / B.X.Ataşov – Bakı: Kooperasiya, – 2016. – 456 s.

Bu fəsildə müəllif, lizinq bazarının ölkəmizdə xüsusi mülkiyyətin formalaşması, sahibkarlıq, biznes fəaliyyətinin vüsət alması kimi amillərin təsiri altında meydana gəldiyini araşdırır. Lizinq bazarının kredit, investisiya, kapital, pul və s. bazarlarının inkişafı ilə paralel olaraq təkamül prosesini keçdiyini əsaslandırır. Bunun üçün normativ-hüquqi əsasların yaradılmasının əhəmiyyətini qeyd edir. Lizinq bazarının formalaşmasını siyasi, iqtisadi, təşkilati və s. amillərlə əlaqələndirir. Müəllif lizinq bazarının formalaşmasını 3 mərhələyə bölməklə; 1) xüsusi mülkiyyət və biznes mühiti; 2) lizinq münasibətlərinin formalaşmasının normativ-hüquqi bazası; 3) Lizinq bazarının inkişafına dəstək istiqamətləri üzrə araşdırır.

Dissertasiyada göstərilir ki, lizinq bazarı dünyanın bütün ölkələrində maliyyə bazarının ən mühüm və perspektivli, səmərəli seqmentlərindən biridir. Bu səmərəlilik və perspektivlilik lizinqin səviyyəsi və özünəməxsus xüsusiyyətlərindən asılıdır. Belə xüsusiyyətlərə aşağıdakıları aid edilir: Birinci xüsusiyyət ondan ibarətdir ki, bu bazarda əməliyyatların hər birində risklər diversifikasiya edilmiş şəkildə qarşılanır və ona görə də riskin səviyyəsi yüksək deyildir. İkinci xüsusiyyət lizinq əməliyyatları sahibkarlıq və maliyyə fəaliyyəti ilə vəhdətdədir və bu səbəbdən də onun genişlənməsi, böyüməsi imkanları çoxşaxəlidir. Üçüncü xüsusiyyət bu bazarda ixtisaslaşma daimi olaraq baş verir və təkmilləşmə sürətlə gedir. Dördüncü lizinq əməliyyatları dünyanın hansı ölkəsində olmasından asılı olmayaraq biznes və sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün səmərəli iqtisadi alətdir. Beşinci xüsusiyyət ondan ibarətdir ki, bu əməliyyat özündə kredit, maliyyə, investisiya əməliyyatların parametrlərini birləşdirdiyinə görə onun cəlbediciliyi artır. Bütün bu xüsusiyyətləri özündə əks etdirən lizinq bazarının ölkəmizdə inkişafı heç də iqtisadi inkişafın artımı ilə həmahəng olmamışdır. Lakin buna baxmayaraq lizinq bazarı da iqtisadiyyatda gedən struktur transformasiyası şəraitində formalaşmağa başlamış, getdikcə böyüməkdə və genişlənməkdə davam edir. Azərbaycanın lizinq bazarının 2007-2022-ci illər ərzində ümumi daxili məhsuldakı pay dinamikası cədvəl 1-də verilmişdir.

**Cədvəl 1**

**Azərbaycanın lizinq bazarının 2007-2022-ci illər ərzində ümumi daxili məhsulda xüsusi çəkisinin dinamikası**

| № | İllər | Lizinq əməliyyatlarının həcmi (mln manatla) | Ümumi daxili məhsulun həcmi (mlrd manat) | Lizinqin ÜDM-də xüsusi çəkisi (%-lə) | Əvvəlki ilə nəzərən dəyişmə (%-lə) |
|---|---|---|---|---|---|
| 1 | 2007 | 186.4 | 28.36 | 0.65 | - |
| 2 | 2008 | 205.7 | 40.14 | 0.51 | -0.14 |
| 3 | 2009 | 89.8 | 35.6 | 0.25 | -0.26 |
| 4 | 2010 | 235,0 | 42,465 | 0,55 | +0,30 |
| 9 | 2015 | 77,2 | 54,380 | 0,14 | +0,03 |
| 10 | 2016 | 102,8 | 60,452 | 0,17 | +0,03 |
| 11 | 2017 | 141,4 | 70,338 | 0,2 | +0,03 |
| 12 | 2018 | 153,1 | 80,092 | 0,19 | -0,01 |
| 13 | 2019 | 161,5 | 81,896 | 0,197 | +0,007 |
| 16 | 2022 | 50.0 | 133,826 | 0,004 | -0,193 |

***Mənbə:*** *Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin və Azərbaycan Lizinq Şirkətləri Assosiasiyasının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Burada 2010-ci ildən başlayaraq 2022-ci il də daxil olmaqla lizinq əməliyyatlarının həcmi və ümumi daxili məhsulun həcmi göstərilmişdir ki, həmin illər ərzində hesablama aparılaraq lizinq əməliyyatlarının ümumi daxili məhsuldakı payı müəyyən olunmuşdur. 2015-ci ildə lizinq əməliyyatlarının cəmi 77,2 mln manat, ÜDM-in cəmi isə 54,380 mlrd. manat olmuşdur. Lizinqin ÜDM-dəki payı 0,14% təşkil etmişdir. 2022-ci ildə lizinq əməliyyatlarının cəmi 50.0 mln. manat, ÜDM-in cəmi isə 133.826 mlrd. manat olmuşdur. Lizinqin ÜDM-dəki payı 0,004% təşkil etmişdir. Ölkəmizdə lizinq bazarının inkişaf xüsusiyyətlərini ətraflı tədqiq və təhlil etmək üçün nəzərdən keçirilməli mühüm göstəricilərdən biri də 2010-2022-ci illər ərzində ayrı-ayrı lizinq obyektlərinin müqavilələrdəki pay dinamikasıdır.

Ölkənin lizinq bazarında vəziyyətin qiymətləndirilməsi üçün nəzərdən keçirilməli olan mühüm göstəricilərdən ibarət olan və lizinq fəaliyyətinin son nəticələrinə təsir edən mühüm parametrlərdən bəziləri də aşağıdakılardır: lizinq təşkilatı üzrə məcmu lizinq portfeli, təşkilat üzrə lizinq müqavilələrinin sayı, orta hesabla bir müqavilənin

dəyəri, vaxtı keçmiş borclar üzrə müqavilə sayı, orta hesabla vaxtı keçmiş borcların məbləği, vaxtı keçmiş borcların məcmu lizinq portfelində payı. Bu sahədə daha aydın təsəvvür yaranması üçün Azərbaycanın kredit və lizinq bazarlarında orta illik faiz dərəcələrinin dinamikasının qrafikinə diqqət yetirək (qrafik 1).




**Qrafik 1. 2012-2022-ci illərdə Azərbaycanın kredit və lizinq bazarlarında orta illik faiz dərəcələrinin dinamikası, faizlə**

***Mənbə:*** *Qrafik AMB-nin və Lizinq Şirkətləri Assosiasiyasının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Qrafikdən görünür ki, 2012-2022-ci illər ərzində lizinq bazarında orta illik faizlər kredit bazarındakı faizlərdən yüksək olmuşdur. Bu isə vəsaitə ehtiyacları olanları lizinq bazarından çəkindirir və kredit bazarına cəlb edir. Dissertasiyada qeyd edilir ki, məcmu lizinq müqavilələrində lizinq obyektlərinin xüsusi çəkisinin artıb-azalması heç də bazarın dinamik inkişafını təmin edən göstəriciyə çevrilə bilməmişdir. Bununla əlaqədar lizinq şirkətlərinin nizamlama kapitalının həddinin müəyyən edilməsi, lizinq fəaliyyətinin təşkili, tənzimlənməsi, idarə edilməsi, lizinq əməliyyatlarında istifadə edilən illik faiz dərəcəsi və s. məsələlər araşdırırlır. Qeyd edilir ki, lizinq əməliyyatlarının ən yuxarı dinamikası illik faiz dərəcəsi Parex Lizinq şirkətində 35%, Finans Lizinq və Ata Lizinqdə 30%, Qafqaz Lizinqdə 26%-dir. Bu göstəricinin aşağı səviyyəsi Aqroservisdə 8%, MBC

Lizinqdə 17%, Uni Lizinqdə 21% səviyyəsində müəyyən edilmişdir. Belə hesab edilir ki, lizinq bazarında illik faiz dərəcəsinin yüksək olması nəticəsidir ki, bu bazar kifayət qədər inkişaf etmir, tələbat yüksək deyil. Ona görə də illik faiz dərəcəsinin yüksək olması nəticəsində subyektlər dövriyyə vəsaitinin çatışmazlığı nəticəsində tələbatlarını ödəyə bilmir, lizinq xidmətlərindən imtina edirlər.

Lizinq əməliyyatlarının inkişafına təsir edən göstəricilərdən biri də əməliyyat üzrə avans ödənişidir. Qeyd edək ki, bu göstəricinin yuxarı olması dövriyyə vəsaitlərinin çatışmazlığı ilə üzləşən hər bir iqtisadi subyekt üçün ağır bir iqtisadi vəziyyət yarada bilir. Vəsaitin olmaması, daha doğrusu çatışmaması iqtisadi subyektlərin ayrı-ayrı istiqamətə yönəldə bilər.

Dissertasiyada MBC Lizinq, Standart Lizinq, Ata Lizinq şirkətlərinin əsas göstəriciləri müqayisəli təhlil edilir. İşdə lizinq bazarının vəziyyətinin qiymətləndirilməsi üçün lizinq portfeli, müqavilələrin sayı, orta hesabla bir müqavilənin dəyəri, vaxtı keçmiş borclar və s. göstəricilər təhlil edilir. 2012-2022-ci illər üzrə lizinq göstəricilərinin artıb-azalma meyli araşdırılır, dövlətin lizinq bazarına təşkilati-iqtisadi mexanizmlə müdaxiləsinə ehtiyac olduğu qənaətinə gəlinir.

Dissertasiya işinin **"Azərbaycanda lizinq əməliyyatlarının təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi prioritetləri"** adlı III fəslində lizinq maliyyələşdirməsi və lizinq əməliyyatlarının inkişafının əsas istiqamətləri, lizinq əməliyyatlarının təşkili və idarə edilməsi problemləri və bazar mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri və Azərbaycanın lizinq əməliyyatlarının təkmilləşdirilməsində beynəlxalq təcrübənin tətbiqi imkanları müəyyən edilmişdir.

Azərbaycanda son illərdə sosial-iqtisadi inkişaf əsasında əldə edilən kifayət qədər maliyyə vəsaitlərinin formalaşması əlverişli makroiqtisadi mühitin yaradılmasına və iqtisadi artıma səbəb olmuş və bunların əsasında ölkənin iqtisadi-siyasi təhlükəsizliyinin təmin edilməsinin bazası yaradılmışdır. 44 günlük Vətən müharibəsində əldə edilən qələbə nəticəsində düşmən işğalından azad olunmuş torpaqların Qarabağ iqtisadi zonasının iqtisadiyyatına inteqrasiya edilməsi, beynəlxalq Şimal-Cənub və regional xarakter daşıyan nəqliyyat-logistika dəhlizlərinin yaratdığı imkanlar respublikamızın iqtisadi və

siyasi inkişafında yeni bir mərhələ yaratmışdır. Bu baxımdan, Cənubi Qafqaz regionunda təhlükəsizliyin, iqtisadi və qarşılıqlı səmərəli fəaliyyətin yaradılması, o cümlədən də təsərrüfat və ticarət fəaliyyətlərinin artması regionun aparıcı ölkəsi olan respublikamızın qonşu dövlətlərin iqtisadi həyatlarında aparıcı rolunu gücləndirəcəkdir.

Dissertasiyada qeyd edilir ki, Azərbaycanda lizinq bazarında olan mühüm problem lizinq kompaniyalarının pul vəsaitlərinin az olmasıdır. Lizinq kompaniyalarının bank və sığorta sektorundan fərqli olaraq əhatə dairəsinin, portfellərinin və kapitallaşma dərəcələrinin az olması bu sahəni həm xarici investorlar, həm də yerli investorlar üçün cəlbedici etmir. Respublikamızda lizinq kompaniyalarına maliyyə vəsaitlərinin baha başa gəlməsi bu şirkətlərin lizinq alanlara sərfəli şərtlər təklif edə bilməməsinə gətirib çıxarır. Lizinq bazarında orta illik faiz dərəcəsi 18%-dən yuxarıdır ki, bu da lizinq sahəsinin əsas rəqibləri olan bank və sığorta sahəsi ilə rəqabətdə uduzdurur. Son iki ildə lizinq üzrə faiz dərəcəsi aşağı salınmasına baxmayaraq yenə rəqabətdə uduzur. Lizinq fəaliyyəti biznesin xüsusi sahəsi kimi fəaliyyət göstərir və lizinqdən istifadənin miqyası artarsa, o müəssisələrdə avadanlıqların yenilənməsinin, milli iqtisadiyyatın modernləşdirilməsinin və nəticədə istehlak bazarının rəqabətədavamlı yerli əmtəələr ilə təmin edilməsinin başlıca yolu ola bilər. Lizinq sövdələşmələrinin səmərəliliyi özünü ölkəmizdə investisiyaların həcminin artmasında, lizinq alan kompaniyaların iqtisadi vəziyyətlərinin yaxşılaşmasında, kiçik və orta biznes subyektlərinin rəqabətə davamlı məhsullar istehsal etməsində göstərir.

Hazırda respublikamızda lizinq xidməti sahəsində mövcud olan normativ-hüquqi baza lizinq bazarının daha səmərəli inkişaf etməsinə imkan vermir. “Mülkü Məcəllə”də lizinq şirkətlərinin fəaliyyətini tənzim edən qaydalarda müəyyən çatışmazlıqlar mövcuddur. Belə ki, hesab edilir ki, bu sənədlərdə lizinqin anlayışı, lizinq əməliyyatlarının operativ və maliyyə lizinqinin növləri, lizinq sövdələşmələrinin girov və zaminliklə təminatı, sığorta olunması və sairə məsələləri obyektin istifadə xarakteri nəzərə alınmaqla öz həllini tapmamışdır.

Dissertasiyada qeyd edilir ki, hazırda lizinq kompaniyaları ciddi kapitallaşma problemləri ilə üzləşirlər. Belə ki, lizinq şirkətlərinin maliyyə vəsaitləri cəlb etməsi üçün yerli mənbələrin məhdud olması

və lizinq şirkətlərinin kapitallaşma səviyyələrinin aşağı olması onların xaricdən pul vəsaitləri cəlb etməsi üçün münbit şərait yaratmır.

Respublikamızın Beynəlxalq Maliyyə Lizinqi haqqında Ottava Konvensiyasına qoşulmaması nəticəsində ölkəmizdə lizinq əməliyyatları həyata keçirilərkən xarici investorlara lazım olan zəmanəti vermək məsələlərində bir sıra problemlər yaranır ki, bu da xarici investorlarda lizinq xidmətləri bazarına olan marağı azaldır.

Lizinq sahəsində olan daha bir problem banklardan və bank olmayan kredit təşkilatlarından fərqli olaraq lizinq kompaniyalarının indiyə kimi Mərkəzləşdirilmiş Kredit Reyestrinə (MKR) qoşulması hesab edilir. Fikrimizcə, bu lizinq alanların odənişləri etməməsi halında baş verəcək risklərin azalması imkanlarını minimallaşdıra bilər. Maliyyə sahəsində problemli kreditlərin olduğu bir vaxtda lizinq şirkətlərinin bu məlumatları əldə etməsi üçün onların Mərkəzləşdirilmiş Kredit Reyestrinə qoşulması olduqca vacibdir və bu qoşulmanın məcburi qaydada edilməsini məqbul hesab etmək olar.

Qeyd etmək lazımdır ki, lizinq verən və lizinq alan arasında müqavilə münasibətlərinin optimallaşdırılması ilə bağlı bir sıra problemlər mövcuddur. Əsas həll olunmamış problemlər bunlar hesab edilə bilər:

- Lizinq subyektlərinin lizinq şirkətlərinin xidmətlərinə tələbatının aşağı olması səbəbindən lizinq sövdələşmələrinin sayının az olması;

- Lizinq alanın ödəmə qabiliyyətinin azalması səbəbindən lizinq ödənişlərinin ödənilməməsi.

Lizinq sazişlərinin artırılması problemini təşkilati idarəetmə və investisiya prosesini dəyişdirməklə lizinq alana əlverişli şərait yaratmaqla həll etmək olar. Qeyd edilir ki, kiçik və orta sahibkarlığın artması hesabına maddi-texniki vasitələri kooperasiya etmək olar ki, bunlarda bazarda lizinq xidmətlərini almağa hazır real subyektlər kimi çıxış edə bilər.

Lizinq xidmətləri sistemində lizinq müqaviləsinin bağlanmasına hazırlıq mərhələsində lizinq müqaviləsinin bağlanmasına real ehtiyacın olub olmadığını təhlil etmək və qiymətləndirmək lazımdır. Dövlət maliyyə dəstəyinin istifadəsi və lizinq əmlakının əldə edilməsi üçün nəzərdə tutulan güzəştlərin verilməsi zamanı dövlət vəsaitlərinin məqsədəuyğun olmayan xərclənməsinin qarşısını almaq üçün hazırlıq

mərhələsinin olması xüsusilə vacib hesab edilir.

Lizinq subyekti olan müəssisələrə investisiya qoyuluşu ilə bağlı maliyyə itkiləri ehtimalını azaltmaq üçün lizinq sazişini bağlamazdan əvvəl lizinq alan müəssisəsinin lizinqtutumluğunu qiymətləndirmək məqsədəuyğundur.

Dissertasiyada lizinq əməliyyatlarının beynəlxalq təcrübəsinin Azərbaycanda tətbiqi imkanları araşdırılır. Lizinq əməliyyatlarının aparılması, müqavilə bağlanması, iştirakçılar və s. hər ölkənin xüsusiyyətlərinə uyğun həyata keçirilir. Bununla yanaşı, lizinq şirkətlərinin lizinq münasibətlərində eyni xarakterli funksiyaları yerinə yetirirlər (sxem 2).




**Sxem 2. Lizinq münasibətlərinin sxemi**
***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunmuşdur.*

Lizinq şirkətlərinin mühüm funksiyalarına aşağıdakıları aid edilir:

- lizinq şirkəti lizinqə götürənin təklif etdiyi qiymətin cari bazar qiymətlərinə nə dərəcədə uyğun olduğunu müəyyən edir;
- lizinq xidmətləri göstərən şirkətlər bağlanmış lizinq müqavilələri əsasında avadanlıq istehsalı və yaxud onların alqı-satqısı ilə məşğul olan müəssisələrdən lizinqə götürənlərin istədikləri əmlakı alır;
- lizinq xidmətləri ilə məşğul olan şirkətlər, alınan avadanlıqları lizinq müqaviləsində qeyd edilən şərtlərlə lizinqə götürən hüquqi və fiziki şəxslərə müvəqqəti istifadə üçün verir.

Lizinq şirkətləri ilə bağlanmış lizinq müqaviləsi aşağıdakıları əhatə edir:

- lizinq müqaviləsinin obyekti;

- lizinq müqaviləsinin tərəfləri (müqavilənin subyektləri);
- müqavilənin fəaliyyət müddəti;
- lizinq üzrə ödəmələr;
- lizinq xidmətləri üzrə təklif edilən əlavə xidmətlər.

Bağlanmış lizinq müqaviləsinin obyekti kimi icarəyə verilən əmlak iştirak edir. Lizinqə götürülmüş əmlakın daşınan və daşınmaz olmasından asılı olaraq lizinqi fərqləndirmək lazımdır.

Lizinq əməliyyatlarının aparılması sxemində tərəflərin əlaqələri və münasibətləri göstərilir (şəkil 1).




**Şəkil 1. Lizinq əməliyyatlarının aparılması sxemi**
***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunmuşdur.*

Dünya ölkələrinin təcrübəsinin 2016-2021-ci illər üzrə məlumatlarının təhlili göstərir ki, ölkələrin lizinq qanunvericiliyində və tənzimlənməsində olan fərqlər dövlətlər arasında bu sahədə qarşılıqlı əməkdaşlığa maneçilik törədirdi və nəticədə beynəlxalq lizinq üçün məhsuldar poliqon tapmaq çətin olurdu. Bu sahədə dövlətlər arasında yaranan problemləri həll etmək, lizinq əməliyyatları üzrə beynəlxalq aləmdə unifikasiya (uyğunlaşma) aparmaq üçün 28.05.1988-ci il tarixdə dünyanın 55 dövləti Kanadanın Ottava şəhərində beynəlxalq maliyyə lizinqi barədə razılaşma imzalamışlar. Bu razılaşmanın imzalanması dünya ölkələrində maliyyə strukturlarının və maliyyə lizinqinin daha da inkişaf etdirilməsinə,

beynəlxalq lizinqin yüksək vüsət almasına səbəb olmuşdur. Nəticədə lizinq münasibətləri özünün bugünkü forma, miqyas, ölçü və parametrlərini almışdır. Dünya ölkələrində lizinq münasibətlərinin yuxarıda qeyd edilən müsbət meyillərinin ölkəmizdə tətbiqi üçün bütün şərait və imkanlar mövcuddur. Dissertasiya işində, qeyd edilir ki, inkişaf etmiş Böyük Britaniya, Avstraliya, Danimarka, ABŞ, Rusiya, İtaliya, Kanada, Türkiyə və s. ölkələrin lizinqin səmərəli tətbiq edilməsinin təcrübəsindən istifadə edilməsi ölkəmizdə lizinq bazarının inkişafını sürətləndirə bilər. Lizinqin sahələrdə tətbiqini genişləndirmək lizinq xidmətini maliyyə xidmətləri bazarının əsas aparıcı seqmentlərindən birinə çevirə bilər.

## NƏTİCƏ

Tədqiqat işinin yerinə yetirilməsi gedişində ölkəmizdə lizinq xidmətləri bazarının mövcud vəziyyəti, inkişaf meyilləri və prioritetləri barədə geniş informasiya və bilgilər əldə olunmuşdur. Əldə olunan göstəricilər yaxın və uzaq xarici ölkələrin lizinq xidmətləri bazarının müvafiq göstəriciləri ilə müqayisə edilərək, milli lizinq xidmətləri bazarının cari inkişaf səviyyəsi təhlil edilmişdir. Eyni zamanda, lizinq bazarının idarə edilməsi və tənzimlənməsi üzrə yerli və xarici təcrübədən irəli gələn əsas məqamlar araşdırılmışdır. Beləliklə, tədqiqatın nəticələrinin ümumi şəkildə təqdim olunması məqsədəuyğun hesab edilir. İlk növbədə qeyd edək ki, son illərdə Azərbaycanda lizinq bazarının və lizinq münasibətlərinin inkişafı üçün geniş imkanlar yaranmışdır. Bunu daha çox investisiya və əmlak bazarlarının inkişafı ilə əlaqələndirmək olar. Belə ki, əmlak bazarında sövdələşmələrin artması öz növbəsində investisiya bazarını da hərəkətə gətirir ki, bu da son nəticədə lizinq bazarının “katalizator”una çevrilir. Onu da nəzərə almaq lazımdır ki, lizinq xidmətləri bazarının inkişafı milli iqtisadiyyatın sahələri, bölmə və sferalarının ahəngdar və tarazlı inkişafına zəmin yaradır.

Dissertasiya işinin yerinə yetirilməsindən əldə olunan nəticələr ondan ibarətdir ki, lizinq əməliyyatlarının inkişafı ölkədə real və maliyyə sektorlarının qarşılıqlı şəkildə inkişafına səbəb olur. Bununla yanaşı, hazırki dövrdə lizinq əməliyyatlarının genişlənməsi

müstəvisində formalaşan lizinq bazarının inkişafı iqtisadiyyatın investisiya potensialının artmasına, dövlətin iqtisadi mənafeyinin təmin olunmasın və eləcə də əhalinin sosial vəziyyətinin yaxşılaşmasına əhəmiyyətli təsir göstərir. Öz sosial-iqtisadi əhəmiyyətinə, təsir istiqamətlərinə və dərəcələrinə görə milli iqtisadiyyatın infrastruktur inkişafında özünəməxsus təşkilati quruluşu, qanunvericilik bazası və iqtisadi aktivlik səviyyəsi ilə aktual tədqiqat obyektinə çevrilən lizinq bazarı əminliklə demək olar ki, iqtisadi sistemin ayrılmaz və mühüm tərkib hissəsidir.

Tədqiqat işində əldə edilən elmi yeniliklər və bu qəbildən olan məsələlərə xüsusi diqqət yetirilmiş və tərəfimizdən aşağıdakı elmi əsaslandırmalar aparılmışdır:

1. Lizinqin resurs potensialının formalaşdırılması və ondan istifadənin metodoloji aspektlərinin müəyyən edilməsi bir neçə mərhələdə öz əksini tapa bilər:

- ölkədə lizinq xidmətinin səmərəli təşkili üçün ilk növbədə lizinq şirkətləri potensial müştəriləri müəyyən etməli və onların hansı aktivlərə ehtiyacı olduğunu müəyyən etmək üçün təhlillər aparması zəruri hesab olunur;
- müəyyən edilən avadanlığın ümumilikdə lizinq şirkətinin aktivləri olacaq resursların əldə edilməsi üçün maliyyə mənbələri müəyyən edilməlidir;
- lizinq xidmətindən səmərəli istifadə üçün və risklərin azaldılması məqsədilə müştərilərin kredit qabiliyyəti, krediti vaxtında ödəmə qabiliyyətini təhlil edərək qiymətləndirməsi mütləq hesab edilir;
- tərəflər arasında bağlanan müqavilədə lizinq şərtləri, o cümlədən, faiz dərəcələri, amortizasiya, əmlakın sığortası, saxlanması və s. digər şərtləri özündə əks olunmalıdır;
- əqdlər bağlandıqdan sonra lizinq şirkəti mümkün təkmilləşdirmələri müəyyən etmək və prosesləri optimallaşdırmaq üçün fəaliyyətinin nəticələrini daim izləməli və təhlil etməlidir;
- lizinq xidmətinin və lizinq əməliyyatlarının təkmilləşdirilməsində başlıca məqamlardan biri də kadr potensialının təkmilləşdirilməsi, strateji planların hazırlanması və müsir modernləşdirməyə xüsusi diqqət yetirilməlidir.

2. İnkişaf etmiş ölkələrin timsalında lizinq əməliyyatlarının aparılmasının dünya təcrübəsi araşdırılmış və milli lizinq xidməti bazarında ondan səmərəli istifadə etməklə lizinq xidmətləri bazarının səmərəli fəaliyyəti mexanizminin formalaşdırılması üçün milli iqtisadiyyatın infrastruktur elementlərinin normal fəaliyyəti təmin olunmalıdır. Burada əsas məsələ lizinq münasibətlərinin inkişafının milli maraqlara və iqtisadiyyatın inkişafı maraqlarına uyğunlaşdırılması məqsədilə elmi-təcrübi baxımdan əsaslandırılmış və sistemli tədbirlər görülməlidir. Xarici təcrübə lizinq xidmətinin sahibkarlığın inkişafında rolu nəzərə alaraq dövlət dəstəyi, məqsədli proqram və layihələr həyata keçirilir. Liznq əməliyyatlarının genişləndirilməsi üçün normativ-hüquqi bazanın təkmilləşdirilməsini şərtləndirir. Araşdırmalara görə hesab edilir ki, burada diqqət mərkəzində olan əsas məsələ lizinq proqramlarının həyata keçirilməsində dövlət büdcəsindən ayrılan vəsaitlərdən səmərəli istifadə olunması vacib şərtdir.

3. Milli lizinq xidmətləri bazarında sövdələşmələrin aparılmasının hüquqi bazası araşdırılaraq, lizinq əməliyyatlarının təkmilləşdirilməsinə yeni yanaşmaların olması zəruri hesab edilir. Araşdırmalar göstərir ki, əslində lizinq xidmətləri bazarında əməliyyatların hüquqi əsaslarının müəyyən edilməsi lizinq əməliyyatlarının təkmilləşdirilməsində əsas rol oynayır. Lizinq bazarında əməliyyatların hüquqi əsaslarının tədqiqi lizinq şirkətlərinə riskləri azaltmağa, qanunvericiliyə əməl olunmasını təmin etməyə və müştərilər üçün daha çevik və rəqabətli təkliflər hazırlamağa kömək edir. Məsələn tərəflərin hüquq və mənafelərinin qorunmasına diqqət yetirilməsini, müasir lizinq əməliyyatlarında bütün tərəflərin lizinq verənin, icarəçinin və üçüncü şəxslərin maraq və hüquqlarının daha ətraflı təhlilini və nəzərə alınmasını tələb edir. Bu, daha çevik razılaşmaların və mübahisələrin həlli mexanizmlərinin işlənməsini əhatə edir. Lizinq bazarı dəyişən qanunlara məruz qalır və müasir lizinq şirkətləri qanunlardakı ən son dəyişikliklərə uyğun olaraq öz təcrübələrini və müqavilələrini daim yeniləməlidir. Məlum olduğu kimi, lizinqverən və lizinqalan arasında qarşılıqlı hüquqi və iqtisadi mexanizmlərdən istifadə olunması ilə dövlət mülkiyyətinin tədricən digər mülkiyyət növlərinə (xüsusi, şərikli, pay mülkiyyətinə)

transformasiyası baş verir. Ona görə də lizinq əqdləri təkmil hüquqi bazanın yaradılması və lizinq xidmətləri bazarının inkişafının dəstəklənmsəi yolu ilə dövlət səviyyəsində, lizinq sövdələşmələrində iştirak edənlər arasında tarazlı münasibətlər modelinin qurulması ilə lizinqverən səviyyəsində, eləcə də lizinq xidmətlərindən məqsədli istifadə ilə lizinqalan səviyyəsində idarə olunmalıdır.

4. Ölkənin lizinq xidmətləri bazarının inkişafında mövcud problemlərin araşdırılması öyrənilərək, onun maliyyə-kredit, təşkilati və qiymət (tarif) tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi müasir bazar iqtisadiyyatının tələblərindən irəli gəlir. Lizinq xidmətin və lizinq əməliyyatlarının son illərdə aşağı səviyyədə olması onların maliyyə problemləri ilə bağlıdır. Hesab edirik ki, lizinqverənlərin ən azı üç il qüvvədə olan maliyyə lizinqi müqavilələrinin həyata keçirilməsindən əldə edilmiş mənfəətə görə vergi ödəməkdən, eləcə də lizinq xidmətləri həyata keçirilərkən əlavə dəyər vergisindən azad edilməsini və bundan əlavə, onların beynəlxalq lizinq obyekti olan əmtəələrə münasibətdə gömrük rüsumlarından və vergiləri ödənişindən qismən azad edilməsini məqsədəuyğundur.

5. Son beş ilin statistikası əsasında aparıcı lizinq şirkətlərinin nümunəsində lizinq əməliyyatlarının təşkili və genişləndirilməsində olan maneələrin aradan qaldırılması üçün elmi-təcrübi metodlar tədqiqat işində öz əksini tapmışdır. Tərəfimizdən aparılan tədqiqat nəticələrinə uyğun olaraq, lizinq bazarının güclü inkişaf etməsi, lizinq münasibətlərinin möhkəmləndirilməsi, lizinq əməliyyatlarının təkmilləşdirilməsi üçün mühüm şərtlərindən biri də, bu bazarda xidmət çeşidinin artırılması, bu xidmət növünün iqtisadiyyatın bütün sahə və sektorlarında geniş tətbiq edilməsi, sahibkarlar üçün lizinq əməliyyatlarının inklüzivliyinin artırılması və s. ibarətdir. Qeyd edilənlərə nail olmaq üçün vacib şərtlərdən biri lizinq münsibətlərini tənzimləyən xüsusi qanunun və digər normativ-hüquqi sənədlərin olması hesab edilir.

6. Ölkədə qəbul edilən inkişaf proqramlarına, konsepsiyalara və Strateji Yol Xəritələrinə uyğun olaraq, lizinq xidmətləri bazarının inkişaf hədəflərinə nail olunmasının səmərəli mexanizmləri işlənilməsinə ehtiyac yaranmışdır. Təhlillər göstərir ki, lizinq əməliyyatları üzrə hüquqi-normativ bazanın səviyyəsi, onun təkmillik

və mükəmməllik səviyyəsi lizinq münasibətlərinin gələcəkdə düzgün təşkil olunması, bu bazarın fəaliyyətinin səmərəli nəticələrə gətirib çıxarması üçün vacib şərtdir. Buna görə də lizinq münasibətlərinin müasir, beynəlxalq tələblərə cavab verən normativ-hüquqi bazasının olması həmişə dövlətin diqqət mərkəzində olmalı və təkmilləşdirilməlidir. Maliyyə alətlərində innovasiya alətlərindən istifadə, qanunvericilik bazasının araşdırılması qanuni tələbləri nəzərə almaqla lizinq əməliyyatlarının daha çevik idarə olunmasına imkan verən yeni maliyyə alətləri və məhsulların yaradılmasını stimullaşdırmalıdır.

7. Apardığımız tədqiqat nəticəsində, ölkəmizdə lizinq bazarının müasir vəziyyəti bu bazarın vəziyyətini xarakterizə edən ən mühüm göstəricilər olan lizinq bazarının ÜDM-dəki pay dinamikası, ÜDM-in və lizinq portfelinin artım dinamikasının müqayisəsi, lizinq obyektlərinin məcmu müqavilələrdəki pay dinamikası, ölkədə fəaliyyət göstərən lizinq şirkətlərinin nizamnamə kapitalının dinamikası, lizinqin illik faiz dərəcələri, avans ödənişləri, sövdələşmə obyektləri, amortizasiya normaları və s. əsasında geniş təhlil edilmiş və bazarın ümumi vəziyyəti müəyyən edilmişdir. Eyni zamanda, ölkəmizdə lizinq münasibətlərinin geniş inkişaf etdirilməsi üçün imkan, şərait, potensial vardır, bundan səmərəli istifadə imknlarının olduğu müəyyən edilmişdir. Bu potensialı yaradan ən mühüm şərtlər isə aşağıdakılardan ibarətdir: ölkədə son illər ərzində ÜDM artımı mövcuddur, investisiya qoyuluşlarında dinamika vardır, iqtisadiyyatın sektorları getdikcə inkişaf edir, genişlənir, sosial və infrastruktur layihələrdə küllü miqdarda vəsaitlər ayrılır və s. Bununla paralel lizinq münasibətlərinin təkmilləşməsini şərtləndirən mühüm parametrlər mövcuddur. Məsələn, lizinq əməliyyatlarında riskin səviyyəsi yüksək deyil, bu əməliyyatlar maliyyə və sahibkarlıq fəaliyyətinin vəhdəti kimi çıxış edir, bu bazarda ixtisaslaşma və təkmilləşmə sürətlə gedir, lizinq biznes və sahibkarlığın inkişaf etdirilməsi üçün səmərəli iqtisadi alətdir, lizinq münasibətləri özündə kredit, maliyyə, investisiya kimi parametrləri əks etdirdiyinə görə cəlbedicidir. Məhz bu parametrlər əsasında gəldiyimiz nəticə ondan ibarətdir ki, ölkəmizdə lizinqin inkişaf etdirilməsi üçün münbit şərait vardır.

**Tədqiqatın əsas məzmunu müəllifin nəşr etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**


1. Lizinq-icarə münasibətlərinin müasir bazar formasıdır // – Bakı: Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. 2009. – s. 95 - 99.
2. Lizinq və onun iqtisadi inkişafda əhəmiyyəti // – Bakı: Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Elmi əsərləri, 2010. – s. 66-71.
3. Проблемы и перспективы развития лизинга в Азербайджане // – Москва: Международный технико – економический журнал, 2012, № 3, – с. 35-40.
4. Формирование и развитие рынка лизинга в Азербайджане // – Минск: VIII Международная научно – практическая конференция на тему «Государственное регулирование экономики и повышение эффективности деятельности субъектов хозяйствования», 26-27 апреля 2012, – с. 27-29
5. Lizinqin resurs potensialının formalaşması və istifadə qaydaları // – Naxçıvan: Naxçıvan Universitetinin Elmi əsərləri, 2018, № 4 (11). – s. 59-64.
6. Lizinqin xarakterik xüsusiyyətləri və aqrar sektorda onun tətbiqi mexanizmi // – Sumqayıt: İqtisadi təhlükəsizlik və mövcud vəziyyət və perspektivlər mövzusunda beynəlxalq elmi konfrans, 02-03 may 2018. – s. 82-86.
7. Aqrar sektorda lizinq əməliyyatlarının inkişaf istiqamətləri // – Bakı: Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, 2018, № 48. – s. 67-71.
8. Мировой опыт лизинга // – Баку: Онлайн научная конференция молодых ученых и докторантов, посвященная 100-летию Азербайджанского Государственного Университета Нефти и Промышленности, 7-8 мая 2020 года, – с.1093-1097.
9. The need for leasing and its role in the economy // – New Era International journal of interdisciplinary social researches, № 6, 2020. – s. 15-19
10. Analysis of the leasing market in Azerbaijan // – Baku: The Scientific and Pedagogical news of Odlar Yurdu University, 2020. № 55.

11. Общие условия лизинга в Азербайджане // – Самара: Тенденции развития науки и образования, март, 2020, № 59. – с. 45-48.

12. Türkiyə Respublikasında lizinqin vergiyə cəlb olunması // – Bakı: Elmi İş Beynəlxalq elmi jurnal. Humanitar və ictimai elmlər üzrə I Beynəlxalq Elmi Konfrans, 2020. – s. 251-253.

13. Main Features of Financial Leasing Using International Experience // Poland: International Journal of Innovative Technologies in Economy, 2021.

14. Lizinq xidmətləri bazarının maliyyələşdirilməsinin prioritetləri və əsas istiqamətləri // – Bakı: Azərbaycan Universiteti. Gənc Tədqiqatçıların V Respublika Elmi-Praktik Konfransının materialları, 15 aprel 2022. – s. 260-262

15. Heydər Əliyevin hakimiyyət illərində Azərbaycan iqtisadiyyatında lizinq prosesi // – Bakı: Azərbaycan Universiteti. Heydər Əliyev və Türk Dünyası. Beynəlxalq Elmi Konfransın materialları, 12 may 2023. – s. 247-248.

16. Lizinq münasibətlərinin tənzimlənməsi təcrübəsi: qarşılıqlı müqayisə və reallıqlar // – Bakı: “Elmi xəbərlər” jurnalı, İctimai və Texniki elmlər seriyası, 2023, № 3. – s. 55-60.

17. Lizinq xidmətləri bazarının inkişafında rəqabət və qiymət amilləri // – Gəncə: İnnovasiyalı iqtisadi menecment. 2023, № 2, – s. 296-300



Dissertasiyanın müdafiəsi 24 aprel 2024-cü il tarixində saat $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin ED2.46 Birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 18 mart 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.03.2024

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 42297 işarə

Tiraj: 100